

*Barat Vüsal*

# ETİRAF

(esse)

**Ömür deyilən bir labirintdir.**

**Yalnız oraya girməyə məhkumsan. Hardan çıxacağını, necə çıxa biləcəyini isə bilmirsən.**

**Bu labirintdən çıxmağın yolu az-çox etiraf ola bilər. Bu "Bircə ondan razıyam ki, özümdən narazıyam" deyən Bəxtiyar Vahabzadənin böyüklük formulu kimi bir şeydi.**

Ərənlər demişlər:"İnsanın özünü hesaba çəkməsi böyüklərin yapdığı bir iş...

Kiçiklər isə başqalarını hesaba çəkməklə məşğul...

Namazının dördünü göydə, birini yerdə qılan Xızır peyğəmbər deyərmiş ki, hər gün iqlimdə 7 dəfə müsahib axtarıram. Fəqət Əhməd Yəsəvidən qabiliyyətlisi və gerçəyini tapammadım.

Amma görün Xızırın sevibseçdiyi həmin övliya kişi (şair, "Divani-Hikmət"in müəllifi) nə deyirmiş?

O, bir çox hikmətlərində özünün iyi bir mömin olmadığını, Allaha gərəyincə xidmət edə bilmədiyini etiraf edirmiş. Söyləyirmiş ki, "Mən qılmadım iyi bir iş... Günahımla iki cahana sığmazam."

**...Könlüm qatı, dilim acı, kəndim zülüm, altmış üç yaşım yetti, keçdim qafil!**

**Hak əmrini möhkəm tutmadım, kəndim cahil.**

**Bu etirafları edən həm də o kişidir ki, övliyadır ki, Meraca gedəndə Məhəmməd peyğəmbər onun ruhunu görüb, Cəbrayıldan sorub:**

**-Bu nasıl ruh, təni görmədən buldu kamal?**

**Cəbrayıl dedi: ümmət işi sizə hakdır.**

Gökə çıxıb mələklərdən dərslər alır.

Daha bir övliyanın təvazökarlığına baxın. Şəms Təbrizi özünü Təbrizdən çıxan kişilərin ən kiçiyi adlandırırdı.

Haqq yolçusu olasan, haqqın dilində danışasan, adın Yunis İmrə olsa da , öz günahlarını danıb gizlətməyə çalışmayasan və deyəsən:

Dərviş adın edindim, dərviş donun donandım,

Yola baxdım, utandım, hər işim yanlış mənim

Yaratdığı dahiyanə əsərlərlə bəşər mədəniyyətinə böyük töhfələr verən Mikelancelo özünü "bəşəri aldadan" adlandırıb, guya yaratdığı zəif əsərlərmiş.

Mikelancelo həmçinin öz poetik yaradıcılığına həvəskar kimi yanaşır, şeirlərinə qəlbini boşaltmaq, əzablarını yüngülləşdirmək vasitəsi kimi baxırdı. Sənətin əlçatmaz zirvəsinə qalxmış bu dahi sənətkar ölüm ərəfəsində etiraf etmişdi ki, "öz sənətimin əlifbasına yenicə yiyələnməyə başlarkən həyatdan ayrılmalı oluram."

Dahiyanə yazılmış" Xəmsə"siylə dünya ədəbiyyatının zirvəsini fəth edən Nizami Gəncəvi təvazökarlıqla "Nizami, bir-iki bakir söz yarat!"-deyə guya indiyə qədər yaratdıqlarının bakir sözlər olmadığına oxucularını inandırmaq istəyirdi.

Ən səmimi sənətkar etiraflarından biri Nəsimiyə aiddir. Divanlar müəllifi özünə "Divanam, nöqtə şəklində," "Hərfəm" deyirmiş...

Jurnalistlərin "Siz özünüzü dahi hesab edirsinizmi?" sualına Salvador Dali belə cavab vermişdi:

-Mən dahiyəmmi? Zənnimcə dünya rəngkarlığında yalnız bir dahi var:

Velaskes!

**Mən isə Jerona vilayətinin istedadlı, ən məşhur və ən hörmətli rəssamıyam.**

**Mən ağıllı olmasaydım, daha gözəl əsərlər yarada bilərdim.**

**Bu fikirləri 1982-ci ildə Katalon parlamentinin qızıl medala layiq gördüyü,Karol Xuan Karlosun Markiz Titulu verdiyi ,insanın iç dünyasını göstərən (dünyanın astarını üzünə çevirən) bir insan dediyinə adam inanmaqda çətinlik çəkir.**

Məhəmməd Füzuli olasan, şöhrətin bütün ərzi, dünyanı başına götürə, axırda deyəsən, deməyə məcbur olasan:

-Mən kiməm?

Bir bikəsü-bixaniman!

Leanardo da Vinçinin adı gələndə Cakondaya sanki bircə nəfəs verməyi unutmuş dahi,yarımallah bir rəssam canlanır adamın gözləri önündə. Sən demə,öz yaratdıqları əsərlərlə hamını razı salan bu dahi sənətkar da özündən narazıymış: "Mən Allahı və insanları təhqir etmişəm. Mən əsərlərimi istədiyim şəkildə yarada bilməmişəm" etirafı onun bəlkə də ən dahiyanə əsəri hesab olunmalıdır.

Lev Tolstoy A.Fetə yazdığı məktubda yazıçı kimi məşhur olsa da, buraxdığı bir səhvi özünə bağışlamadığını bildirmişdi:

"Çox xoşbəxtəm ki,bir də "Hərb və Sülh" kimi uzun sicilləmə yazmayacağam!"

Səməd Vurğun 1946-cı ildə "Unudulmuş tək məzar" adlı şeirini yazanda 40 yaşında idi. Yuxusunda görmüşdü o tək məzarı.

**Başqa bir əsəri olmasaydı da, təkcə bu şedevrlə əbədi yaşamaq hüququna malik ola bilərdi bu ölməz sənətkar!**

**Mən hərdən deyirəm ki,Səməd Vurğunu insafsızcasına "tənqid"etməyə ehtiyac yoxdur.O, həmin şeirdə öz-özünü yetərincə tənqid etmiş,öz gücünü və zəif cəhətlərini çəkinmədən,nədənsə, kimdənsə ehtiyat etmədən ortaya qoymuşdu.**

Şair qəbristanda dünyagörmüş bir qocadan tək qalmış boş məzarın ona aid olduğunu öyrənib bilində yazmışdı:

***...Evə gəldim, can pərişan,***
***Ötən ömrü soraqladım***
***Bu fikirlə xeyli zaman***
***Kitabları varaqladım.***

***Ağıllı söz,yaxşı şeir,***
***Yazmışammı,varsa hanı?***
***Gördüm qoca doğru deyir,***
***Uçdu könlüm xanimanı.***

***Boğulduqca göz yaşıma,***
***Dedim ömür yoldaşıma:***
***Qapıları tez ol bağla,***
***Otağı da bir az qızdır.***
***Sən də bil ki,təmtəraqla***
***Keçən günlər vəfasızdır.***

***Hanı qələm,hanı kağız,***
***Tez ol gətir a dildarım.***
***Barı gəzsin ağız-ağız,***
***İndən belə yazdıqlarım!***

Bu həqiqəti anlamaq lazımdır.

Bu cür etirafları hər adam edə bilmir.Etiraf böyüklükdən doğur. Sənətkarın öz qüdrətini dərk etməsindən yaranır!

Səməd Vurğun da yuxarıdakı etirafını görün nə vaxt etmişdi?

Artıq həmin dövrdə dünya şöhrətli bir şairdi o!

Lakin kişi kimi etiraf etməyə özündə güc tapmışdı ki, deyə bilsin:

"Mən hələ ağıllı söz, yaxşı şeir yazmamışam!" (Əlbəttə ki, guya?!)

"Barı bir kəlməsə təzə söz gətir!" misrası da ona məxsusdur və Nizaminin "Nizami, biriki bakir söz yarat" fikriylə necə də səsləşir!..

**Nazim Hikmət yazırdı:**

**"Bir vaxt vardı, şairdim. Qəzəbləndiyim,sevindiyim, nifrət etdiyim vaxtlar toxunduğum, gördüyüm, düşündüyüm hər şey haqqında şeir quraşdırırdım.(?!) Duyduğumu yaza bilmək bəxtiyarlığına sahibdim.**

**İndi əldə şairlik də qalmadı..."**

Böyük türk şairi bu sətirləri yazanda 1950-ci il idi. Hələ ölümünə 13 il vardı.Ən maraqlısı budur ki, o, ən gözəl şeirlərinin bir çoxunu elə "əldə şairlik də qalmadı" etirafından sonra yazmışdı.

Elə bir etirafı sonralar Məmməd Araz da etmişdi:"Mən bir zaman şair idim."

N.F.Qısakürəyin də öz yaradıcılığı ilə bağlı çox maraqlı açıqlamaları-etirafı var.

Əvvəla, onu deyim ki, 100-ə yaxın kitabı çapdan çıxmış bu övliya şair axırda əsl poeziya nümunələrini "Çilə" adlı kitabında seçib çap etdirmişdi. Başqa kitablarını o qədər də bəyənmədiyini demişdi. Guya ürəyincə deyillərmiş.

Kim bilir, bəlkə "Çilə" toplusu da hələ tam bəyəndiyi əsər deyilmiş?!

Türkiyənin "Şairlər sultanı" "Vəsiyyətnamə"sində qeyd edir ki, mürşidim Abdul hakim Arvasi həzrətlərinin "Altun ilə yazılacaq yazı" adlandırdığı bir yazısı olub.Vəsiyyətində xüsusilə vurğulayır ki, həmin yazını "bütün əsərlərimin təsdiqlənməsi olaraq kəfənimə ilişdirsinlər."

Etiraf edib ki, "Əsərlərim mövzusunda vəsiyyətim qısaca bu: ilk yazılarımdan bir çoxu əsla (!?) mənim deyil."

Şair özünü böyük sənətkardan çox, divanə adlandırmışdı.

"Məni də Allah və Rəsul eşqinin yanıq bir örnəyi və ardından bir takım səslər buraxmış divanəsi olaraq arada bir xatırlayınız."

Etiraf adicə bir hərəkət deyil, ayrıca bir mədəniyyətdir.

Dünya şöhrətli bəstəkar Qara Qarayev etiraf edəndə ki, "İldırımlı yollarla" baleti onun bütün imkanları səviyyəsində əsər deyilmiş. Hamı eşidib təəccüblənmişdi.

Onu da ondan da üstün əsərlər yaradanda başa düşmüşdülər.

Bu qəribə taleyi məşhur bəstəkar Dimitri Şostakoviç də yaşayıb, böyük yazıçımız İsa Muğanna da...

Onlar da çıxdıqları zirvədən baxanda görmüşdülər ki, zirvə deyilən tamam başqa bir şeymiş.

Zirvə-bəlkə də etirafın özüymüş?!

***Milyon naxış vurur torpağa, daşa,***
***Güvənib hüsnünə "Baharam" demir.***
***Gölməçə harayı qulaq batırır,***
***Ümman dilə gəlib "Mən varam" demir.***

***(Hüseyn Arif)***

Aşıq Ələsgər Ərşdən-Gürşdən xəbər verən ustad bir sənətkar olmasına baxmayaraq deyirdi:

***Ələsgərəm, hələ azdı kamalım,***
***Vacibdi ki, bir ustaddan dərs alım!***

"Bizlər o böyüklərin yazılarını anlamıyoruz. Ancaq bərəkətlənmək üçün oxuruz"

Bu sözləri deyən Abdulhakim Arvasi həzrətləri N.F.Qısakürəyin ustadı-Mürşidi olmaqla yanaşı, mükəmməl bilicilərin bilicisi idi...

...Dünyaya nə qədər dahi sənətkarlar gəlib, gedib.

Nələr yaradıblar!

Nələr yaratmayıblar?!

Nələr bəstələyiblər!

Nələr bəstələməyiblər?!

Nələr çəkiblər!

Nələr çəkməyiblər?!

Nələr yazıblar!

Nələr yazmayıblar?!

Ancaq yenə də hesab ediblər ki, bundan da yaxşısını etmək olardı.S.Vurğun düz deyirmiş: "Hələ də bizim sənət eşqimiz kamala yetməmişdir!

***P.S. Etiraf həm də ən gözəl əsərdir!***

***Hər yetənin yazmaq istədiyi,amma yaza bilmədiyi bir əsər!***